# İnformasiya təhlükəsizliyinin normativ-hüquqi bazası

Rasim Mahmudov

*AMEA İnformasiya Texnologiyaları İnstitutu*
rasimmahmudov@gmail.com

***Xülasə*— Məqalədə informasiya təhlükəsizliyinin beynəlxalq və milli səviyyələrdə mövcud normativ-hüquqi bazası araşdırılır. O cümlədən informasiya təhlükəsizliyinin hüquqi-ideoloji bazası, informasiyanın əlyetərliliyi-nin, konfidensiallığının, intellektual mülkiyyət hüquqları-nın qorunmasının, informasiya texnologiyalarının, informasiya təhlükəsizliyi sahəsində qanun pozuntuları və məsuliyyət məsələlərinin hüquqi əsasları analiz edilir. Azərbaycanın informasiya təhlükəsizliyi sahəsində qanunvericilik bazasının təkmilləşdirilməsinə dair təkliflər irəli sürülür.**

***Açar sözlər*— *informasiya təhlükəsizliyi; informasiya təhlükəsizliyinin normativ-hüquqi bazası; informasiyanın əlyetərliliyi; informasiyanın konfidensiallığı; kibercinayətkarlıq; intellektual mülkiyyət hüququ; fərdi məlumatlar***

## I. GİRİŞ

İnformasiya cəmiyyətində, informasiya iqtisadiyyatında informasiyanın rolu, əhəmiyyəti strateji resurs kimi ön plana keçdiyi kimi, onun təhlükəsizliyi məsələsi də xüsusi aktuallıq kəsb etməyə başlayır. İnformasiya təhlükəsizliyinin əsasında informasiyanın mühafizəsi məsələləri dayanır. İnformasiyanın mühafizəsi isə aşağıdakı hüquqi, təşkilati və texniki tədbirlər toplusunu özündə əks etdirir:

- İnformasiyanın tamlığını qorumaq
- İnformasiyanın konfidensiallığını təmin etmək
- İnformasiyanın əlyetərliliyini təmin etmək

İnformasiyanın mühafizəsinin aşağıdakı üsulları mövcuddur: hüquqi, texniki, fiziki, kriptoqrafik.

İnformasiyanın hüquqi mühafizəsi informasiya təhlükəsizliyinin normativ-hüquqi bazasına əsaslanır.

İnformasiyanın hüquqi mühafizəsi – informasiyanın mühafizəsi üzrə subyektlər arasında münasibətləri tənzimləyən normativ hüquqi sənədlərin hazırlanması, qəbulu və tətbiqi, həmçinin onların yerinə yetirilməsinə nəzarəti özündə əks etdirən informasiyanın hüquqi üsullarla mühafizəsidir.

Mühafizə olunan informasiya bu kateqoriyalara bölünür:
açıq informasiya, konfidensial informasiya, dövlət sirrinə aid informasiya. Konfidensial informasiyaya bunlar aiddir: kommersiya sirri, xidmət sirri, peşə sirri, fərdi məlumatlar.

Göstərilən kateqoriyaların hər birinə aid olan informasiya qanunvericiliklə müəyyən olunur və qorunur. İnformasiya təhlükəsizliyinin təmin olunması üzrə fəaliyyətə həmçinin intellektual mülkiyyətin qorunması da aiddir. İnformasiya təhlükəsizliyinin təmin olunması məsələsi informasiya texnologiyalarının hüquqi tənzimlənməsi məsələsi ilə sıx bağlıdır. İnformasiya texnologiyalarının tənzimlənmə sahələri aşağıdakılardır:

- Rabitə və kommunikasiyanın təmin edilməsi;
- Kriptoqrafik vasitələrdən istifadə;
- İnformasiyanın müahifizə obyektlərinin və vasitələrinin lisenziyalaşdırılması, sertifikatlaşdırılması və attestasiyası.

Bunlardan başqa, informasiyanın mühafizəsi üzrə fəaliyyətə informasiya, informasiya texnologiyaları və informasiyanın mühafizəsinə dair qanunvericiliyin pozulmasına görə məsuliyyət tədbirlərinin tətbiq edilməsi mexanizmləri də aiddir [1].

## II. İNFORMASİYA TƏHLÜKƏSİZLİYİNİN ƏSAS HÜQUQİ BAZASI

İnformasiyanın mühafizəsi prinsipləri beynəlxalq normalara və dövlətin konstitusion prinsiplərinə əsaslanır. O cümlədən Azərbaycan Respublikası (AR) Konstitusiyasında da müvafiq prinsiplər (insan və vətəndaş hüquq və azadlıqları, əqli mülkiyyət hüququ, təhlükəsiz yaşamaq hüququ, şəxsi toxunulmazlıq hüququ, fikir və söz azadlığı, məlumat azadlığı) öz əksini tapıb.

"Milli təhlükəsizlik haqqında" AR Qanunu (2004) ölkəmizdə informasiya təhlükəsizliyinin hüquqi əsaslarını müəyyən edən mühüm qanunvericilik aktlarından biridir. Bu qanuna görə, AR-ın informasiya sahəsində milli təhlükəsizliyinin təmin olunması dövlət, ictimai və fərdi informasiya ehtiyatlarının qorunmasına, habelə informasiya sahəsində milli maraqların müdafiəsinə yönəlmiş tədbirlər kompleksinin həyata keçirilməsidir.

"İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" AR Qanunu (1998) da informasiya təhlükəsizliyinin hüquqi əsaslarını müəyyən edən mühüm mənbələrdən biridir. Bu qanun informasiyanın yığılması, işlənməsi, saxlanması, axtarışı, yayılması əsasında informasiya ehtiyatlarının formalaşdırılması, informasiya sistemləri, texnologiyaları, onların təminat vasitələrinin yaradılması və onlardan istifadə olunması, informasiyanın mühafizəsi ilə əlaqədar olaraq yaranan münasibətləri tənzimləyir və informasiya proseslərində iştirak edən subyektlərin hüquqlarını müəyyən edir.

Bunlardan başqa, AR Prezidenti, Nazirlər Kabineti və digər müvafiq mərkəzi icra hakimiyyəti orqanları səviyyəsində qəbul olunan aşağıdakı konseptual sənədlər də informasiya təhlükəsizliyinin hüquqi əsaslarının formalaşmasında mühüm rol oynayır [2]:

1. Azərbaycan Respublikasının İnkişafı naminə İnformasiya və Kommunikasiya Texnologiyaları üzrə Milli Strategiya (2003-2012)
2. "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı" ("Elektron Azərbaycan")
3. "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı" ("Elektron Azərbaycan")

4. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası (2007)
5. "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyası (2013-2020)
6. Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı (2009-2013)
7. "Dövlət orqanlarının və bələdiyyələrin İnternet informasiya ehtiyatlarının yaradılması Formaları və Qaydaları" (AR NK, 2007)

Beynəlxalq və regional təşkilatlar tərəfindən qəbul olunan aşağıdakı konvensiyalar, bəyannamələr, xartiyalar, direktivlər, model qanunlar da dövlətin informasiya təhlükəsizliyi sahəsində hüquqi siyasətinin müəyyən olunmasında mühüm əhəmiyyətə malikdir [3]:

1. BMT-nin Ümumdünya insan hüquqları Bəyannaməsi (1948)
2. KİV və insan hüquqları haqqında Avropa Şurası Bəyannaməsi (1970)
3. Beynəlxalq reklam praktikası Məcəlləsi (Beynəlxalq Ticarət Palatası, 1986)
4. Yeni informasiya texnologiyaları sahəsində Avropa siyasəti haqqında Bəyannamə ( AŞ,1999)
5. Qlobal informasiya cəmiyyətinə dair Okinava Xartiyası ("Böyük səkkizlik", 2000)
6. Qlobal kibertəhlükəsizlik mədəniyyətinin yaradılmasına dair Elementlər (BMT, 2002)
7. İnternetdə informasiya mübadiləsi azadlığı haqqında Bəyannamə (AŞ, 2003)
8. Rəqəmsal irsin mühafizəsi haqqında Xartiya (YUNESKO, 2003)
9. Prinsiplər Bəyannaməsi: İnformasiya cəmiyyəti quruculuğu – yeni minillikdə qlobal vəzifə (Cenevrə Sammiti, 2003)
10. Fəaliyyət Planı (Cenevrə Sammiti, 2003)
11. İnformasiya cəmiyyətində insan hüquqları və hüququn aliliyi haqqında AŞ Konvensiyası (2005)
12. İnformasiya cəmiyyəti üçün Tunis Proqramı (Tunis Sammiti, 2005)
13. Tunis Öhdəliyi (Tunis Sammiti, 2005)
14. Qlobal kibertəhlükəsizlik Proqramı (BTİ, 2008)
15. İnternet iqtisadiyyatının gələcəyinə dair Seul Bəyannaməsi (İƏİT, 2008)
16. Beynəlxalq reklam fəaliyyəti Məcəlləsi (Beynəlxalq Ticarət Palatası, 1986)
17. YUNİSTRAL-ın Elektron ticarət haqqında model Qanunu (1996)
18. YUNİSTRAL-ın Elektron imza haqqında model Qanunu (2001)

## III. İNFORMASİYANIN ƏLYETƏRLİLİYİNİN TƏMİN OLUNMASININ HÜQUQİ ƏSASLARI

Azərbaycan Respublikasının qanunvericiliyində əlyetərli informasiya "açıq informasiya" kimi ifadə edilir. "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununa görə, açıq informasiya - əldə olunması, işlənməsi, verilməsi və ya istifadəsi Azərbaycan Respublikasının qanunvericiliyi ilə məhdudlaşdırılmayan və ümumi istifadə üçün təyin olunmuş sənədləşdirilmiş informasiyadır. "İnformasiya azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunu informasiya azadlığının həyata keçirilməsi üçün qaydalar müəyyənləşdirir, vətəndaşların informasiya əldə etmək hüququnun təmin edilməsi sahəsində dövlət orqanlarının, bələdiyyələrin, mülkiyyət növündən asılı olmayaraq bütün hüquqi şəxslərin vəzifə və funksiyalarını tənzimləyir.

İnformasiya əlyetərliliyinin təmin olunmasına dair beynəlxalq normativ-hüquqi aktlar [3]:

1. YUNESKO-nun "Təhsil, elm və mədəniyyət xarakterli audio-materilların beynəlxalq səviyyədə yayılmasına yardım haqqında" Müqaviləsi (1948)
2. YUNESKO-nun "Statistikanın və kitab, qəzet və digər dövri nəşrlərin beynəlxalq standartlaşdırılması haqqında yenidən işlənmiş Tövsiyələri (1958)
3. YUNESKO-nun "Nəşrlərin beynəlxalq mübadiləsi haqqında" Konvensiyası (1958)
4. YUNESKO-nun "Rəsmi nəşrlərin və dövlət sənədlərinin dövlətlərarası mübadiləsi haqqında" Konvensiyası (1958)
5. "Kitabxana statistikasının beynəlxalq standartlaşdırılması haqqında" YUNESKO-nun Tövsiyələri (1970)
6. AŞPA-nın "Milli yayınların rolu və onların idarə edilməsi haqqında" 748 saylı Tövsiyəsi (1975)
7. "Radio və televiziya sahəsində statistikanın beynəlxalq satandartlaşdırılması haqqında YUNESKO-nun Tövsiyələri (1976)
8. "Təhsil statistikasının beynəlxalq standartlaşdırılması haqqında YUNESKO-nun yenidən işlənmiş Tövsiyələri (1978)
9. "Hərəkətli təsvirlərin mühafizəsi və saxlanması haqqında" YUNESKO-nun Tövsiyələri (1980)
10. "Dövlət paralmentlərinin kütləvi informasiya vasitələri ilə münasibətləri haqqında" AŞPA-nın 820 saylı Qətnaməsi (1984)
11. "Transmilli televiziyalar haqqında" Avropa Konvensiyası (1989)
12. "İnformasiya cəmiyyəti xidmətlərinin bəzi hüquqi aspektləri haqqında" AŞ və AB-nin Direktivi (2000)
13. "Məhdud girişi nəzərdə tutan xidmətlərin hüquqi mühafizəsi haqqında" Avropa Konvensiyası (2001)
14. "Kiberməkanda çoxdilliliyin inkişafı, istifadəsi və ümumi əlyetərlilik haqqında" YUNESKO-nun Tövsiyələri (2003)
15. "Beynəlxalq müqavilələrdə elektron məlumatlardan istifadə haqqında" BMT Konvensiyası (2005)

Milli qanunvericilik aktları:

1. "İnformasiya azadlığı haqqında" AR Qanunu (2005)
2. "İnformasiya əldə etmək haqqında" AR Qanunu (2006)
3. "Reklam haqqında" AR Qanunu (1997)
4. "KİV haqqında" AR Qanunu (1999)

## IV. İNFORMASİYANIN KONFİDENSİALLIĞININ TƏMİN OLUNMASININ HÜQUQİ ƏSASLARI

Azərbaycan qanunvericiliyinə görə, konfidensial informasiyaya vətəndaşların, mülkiyyət növündən asılı olmayaraq yaradılmış idarə, müəssisə və təşkilatların, digər hüquqi

şəxslərin qanuni maraqlarının qorunması məqsədilə əldə olunmasına məhdudiyyət qoyulan məlumatlar, habelə peşə (həkim, vəkil, notariat), kommersiya, istintaq və məhkəmə sirləri aiddir. Beynəlxalq hüquq praktikasında istintaq və məhkəmə sirləri kimi xidmət sirlərinin sırasına hərbi, vergi, gömrük sirləri, peşə sirrinin sırasına isə rabitə, sığorta, auditor, jurnalist, bank, övladlığa götürmə sirləri də aid edilir. Bundan başqa, dövlət sirri təşkil edən və fərdi məlumatlar da konfidensial informasiya kateqoriyasına aiddir.

Ölkə qanunvericiliyinə görə, dövlət sirri - dövlətin hərbi, xarici-siyasi, iqtisadi, kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyəti ilə bağlı olub, dövlət tərəfindən mühafizə edilən və yayılması Azərbaycan Respublikasının təhlükəsizliyinə ziyan vura bilən məlumatlardır [4].

"Fərdi məlumatlar haqqında" AR Qanunu (2010) fərdi məlumatları – şəxsin kimliyini birbaşa və ya dolayısı ilə müəyyənləşdirməyə imkan verən istənilən məlumat kimi müəyyən edir.

Ölkə qanunvericiliyinə görə, kommersiya sirri - hüquqi və fiziki şəxslərin istehsal, texnoloji, idarəetmə, maliyyə və başqa fəaliyyəti ilə bağlı, sahibinin razılığı olmadan açıqlanması, onların qanuni maraqlarına ziyan vura bilən məlumatlardır.

İnformasiya konfidensiallığının təmin olunmasına dair milli normativ-hüquqi aktlar [4]:

1. AR Cinayət Məcəlləsi (1999)
2. AR Cinayət-Prosessual Məcəlləsi (2000)
3. AR Mülki Məcəlləsi (1999)
4. AR Mülki-Prosessual Məcəlləsi (1999)
5. AR Ailə Məcəlləsi (1999)
6. "Dövlət sirri haqqında" AR Qanunu (2004)
7. "Fərdi məlumatlar haqqında" AR Qanunu (2010)
8. "Kommersiya sirri haqqında" AR Qanunu (2001)
9. "Banklar haqqında" AR qanunu (2005)
10. "Notariat haqqında" AR qanunu (1999)
11. "Əhalinin sağlamlığının qorunması haqqında" AR qanunu (1997)
12. "Vəkillər və vəkillik fəaliyyəti haqqında" AR qanunu (1999)
13. "Auditor xidməti haqqında" AR Qanunu (1994)

İnformasiya konfidensiallığının təmin olunmasına dair beynəlxalq normativ-hüquqi aktlar [3]:

1. "Fərdi məlumatların avtomatlaşdırılmış emalı zamanı fiziki şəxslərin qorunması haqqında" Konvensiya (AŞ, 1981, AR, 2009)
2. "Fərdi məlumatların emalı və həmin nəlumatların sərbəst dövriyyəsi zamanı şəxsiyyətin müdafiəsi haqqında" AŞ və AB Direktivi (1995)
3. "Elektron kommunikasiyalar sahəsində fərdi məlumatların emalı və şəxsi sirlərin qorunması haqqında" AŞ və AB Direktivi (2002)

## V. İNTELLEKTUAL MÜLKİYYƏTİN QORUNMASININ HÜQUQİ ƏSASLARI

İntellektual mülkiyyətin obyektləri bunlardır: ədəbiyyat, incəsənət əsərləri və elmi əsərlər; artistlərin ifaçılıq fəaliyyəti, fonoqramlar və radio verilişləri; insan fəaliyyətinin bütün sahələri üzrə ixtiralar; elmi kəşflər; sənaye nümunələri; əmtəə nişanları, xidmət nişanları, kommersiya adları və nişanları; kompüter proqramları; verilənlər bazaları; inteqral sxem topologiyaları; seleksiya nailiyyətləri; istehsal sirləri (nou-hau) və s.

İntellektual mülkiyyət hüquqlarının qorunmasına dair beynəlxalq normativ-hüquqi aktlar [5]:

1. Sənaye mülkiyyətinin qorunması haqqında Paris Konvensiyası (1883)
2. Ədəbi və bədii əsərlərin qorunması haqqında Bern Konvensiyası (1886)
3. Müəllif hüquqları haqqında Ümumdünya Konvensiyası (1952, AR,1997)
4. İfaçıların, fonoqram istehsalçılarının və yayım təşkilatlarının hüquqlarının qorunması haqqında Beynəlxalq Konvensiya (1961, AR, 2005)
5. Ümumdünya İntellektual Mülkiyyət Təşkilatını təsis edən Konvensiya (1967)
6. Patent kooperasiyası haqqında müqavilə (1970)
7. "ÜƏMT-nın Fonoqram istehsalçılarının mənafelərinin onların fonoqramlarının qanunsuz təkrar istehsalından qorunması haqqında" Konvensiyası (1971, AR,2001)
8. Yarımkeçirici məhsul topoqrafiyalarının hüquqi qorunması haqqında AŞ və AB Direktivi (1986)
9. Kompüter proqramlarının hüquqi qorunması haqqında AŞ və AB Direktivi (1991)
10. Məlumat bazalarının hüquqi qorunması haqqında AŞ və AB Direktivi (1996)
11. ÜƏMT-nin Müəlliflik hüququna dair Müqaviləsi (1996, AR-2005)
12. ÜƏMT-nin İfalar və fonoqramlara dair Müqaviəsi (1996, AR,2005)

İntellektual mülkiyyət hüquqlarının qorunmasına dair milli normativ-hüquqi aktlar [4]:

1. "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında AR Qanunu" (1996)
2. "Patent haqqında" AR qanunu (1997)
3. "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" AR Qanunu (1998)
4. "İnteqral sxem topologiyalarının hüquqi qorunması haqqında" AR Qanunu (2002)
5. "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında" AR Qanunu (2003)
6. "Məlumat toplularının hüquqi qorunması haqqında" AR Qanunu
7. "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" AR Qanunu (2012)
8. Azərbaycan Respublikasında müəlliflik hüququ və digər əqli mülkiyyət hüquqları sahəsinin inkişafı üzrə 2009-2012-ci illər üçün Dövlət Proqramı

## VI. İNFORMASİYA TEXNOLOGİYALARININ NORMATİV-HÜQUQİ BAZASI

İnformasiyanın mühafizəsi informasiya texnologiyaları ilə sıx bağlıdır. Dövlət informasiya texnologiyalarının inkişafına standartlaşdırma və lisenziyalaşdırma mexanizmləri vasitəsi ilə nəzarət edir. Həmçinin dünyanın bir sıra ölkələrində kriptoqrafik vasitələrlə bağlı münasibətlər də qanunvericiliklə tənzimlənir. Hazırda qeyri-simmetrik kriptoqrafik alqoritmlər əsasında e-imza sistemi və onunla bağlı olan e-sənəd dövriyyəsi qurulur.

İnformasiya texnologiyalarının hüquqi tənzimlənməsinə dair beynəlxalq və milli normativ-hüquqi aktlar [3, 4]:

1. Peyklər vasitəsilə ötürülən daşıyıcı siqnal proqramlarının yayılması haqqında Brüssel Konvensiyası (1974)
2. BTİ-nin Nizamnaməsi (1992)
3. BTİ-nin Konvensiyası (1992)
4. AŞ və AB-nin rabitə sahəsində lisenziyalara dair Direktivi (1997)
5. AŞ və AB-nin açıq şəbəklər vasitəsilə qarşılıqlı əlaqələr haqqında Direktivi (1997)
6. "İnformasiya cəmiyyəti xidmətlərinin, o cümlədən e-kommersiyanın bəzi hüquqi aspektləri haqqında" AŞ və AB Direktivi (2000)
7. "Sirlərin qorunması və e-kommunikasiyalar haqqında" AŞ və AB Direktivi (2002)
8. "Avropa cəmiyyətində e-imza strukturu haqqında" AŞ və AB Direktivi (1999)
9. "Rabitə haqqında"AR Qanunu (1997)
10. "Telekommunikasiya haqqında" Qanun (2006)
11. "Elektron imza və elektron sənəd haqqında" Qanun (2004)
12. "Elektron ticarət haqqında" Qanun (2005)

## VII. İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ SAHƏSİNDƏ QANUN POZUNTULARI VƏ HÜQUQİ MƏSULİYYƏT

İnformasiya texnologiyaları sahəsində qanun pozuntularına görə bu hüquqi məsuliyyət növləri tətbiq edilir: mülki-hüquqi, maddi, intizam, inzibati və cinayət məsuliyyəti. Bu hüquqi məsuliyyət növləri müvafiq olaraq mülki, əmək, inzibati və cinayət hüququnun obyekti kimi çıxış edir. Mülki və əmək hüquqi sahələrində hüquqpozmalar, əsasən intellektual mülkiyyət və informasiyanın mühafizəsi rejiminin pozulması ilə bağlı baş verir. Maddi məsuliyyət şəxsin xidməti vəzifəsini yerinə yetirərkən əmlaka vurduğu ziyana görə yaranır.

BMT-nin təsnifatına görə, İT sahəsində cinayətkarlığın növləri bunlardır: istehsal casusluğu, sabotaj, vandalizm, parolları ələ keçirmə, spufinq, uşaq pornoqrafiyasını yayma, azartlı oyunlar, dələduzluq. Kibercinayətkarlıq üzrə Avropa Konvensiyası cinayətin dörd tipini nəzərdə tutur [3]:

1. Kompüter məlumatlarının və sistemlərinin konfidensi-allığı, tamlığı və əlyetərliliyi əleyhinə cinayətlər
2. Kompüterlə bağlı cinayətlər
3. Kontentlə bağlı cinayətlər
4. Mülkiyyət hüququ ilə bağlı cinayətlər

AR İnzibati Xətalar Məcəlləsinin (1999) 16-cı fəsli informasiyadan istifadə edilməsi, onun yayılması və mühafizəsi qaydaları əleyhinə olan inzibati xətalara həsr olunub. AR Cinayət Məcəlləsinin (1999) 3 maddədən ibarət olan 30-cu fəsli kompüter informasiyası sahəsində cinayətlərə həsr olunub. Bundan başqa həmin Məcəllədə müəlliflik hüquqlarını və ya əlaqəli hüquqları pozma, İnteqral sxem məlumat toplularından qeyri-qanuni istifadə ilə bağlı müddəalar da öz əksini tapıb [4]. Hazırda AR Cinayət Məcəlləsində kibercinayətkarlıqla bağlı yeni maddələrin əlavə edilməsi nəzərdə tutulur.

İnformasiya təhlükəsizliyi sahəsində qanun pozuntuları və hüquqi məsuliyyətlə bağlı beynəlxalq normativ-hüquqi bazası [3]:

1. Kibercinayətkarlıq üzrə Avropa Konvensiyası (2001, AR, 2009)
2. Beynəlxalq müqavilələrdə e-informasiyadan istifadə haqqında BMT Konvensiyası (2005)
3. İnformasiya sistemlərinə hücumlar haqqında AB-nin çərçivə Qərarı (2005)

## NƏTİCƏ

Etibarlı informasiya təhlükəsizliyi sistemi qurmaq üçün, ilk növbədə, möhkəm hüquqi baza formalaşdırılmalıdır. Azərbaycanda bu sahədə müəyyən hüquqi baza mövcuddur. Lakin sürətlə inkişaf edən və bütün sahələrə getdikcə daha dərindən nüfuz edən informasiya texnologiyalarının formalaşdırdığı informasiya mühitinin lazımi səviyyədə hüquqi tənzimlənməsi üçün qanunvericilik sistemi də baş verən dəyişikliklərə, yeniliklərə çevik reaksiya verməli, daim yenilənməli, təkmilləşməlidir.

İnternetin imkanlarına əsaslanan kibermәkan, kibercinayətkarlıq fəaliyyəti də qlobal xarakterlidir, milli sərhədlərlə məhdudlaşmır. Ona görə də informasiya təhlükəsizliyinin möhkəmləndirilməsi, kiberməkanının hüquqi tənzimlənməsi, kibercinayətkarlıqla effektli mübarizə aparmaq üçün beynəlxalq əməkdaşlıq tələb olunur. Bu baxımdan, Azərbaycanının informasiya təhlükəsizliyi ilə bağlı bir sıra mövcud beynəlxalq və Avropa konvensiyalarına qoşulması, eləcə də qarşılıqlı hüquqi yardım məqsədilə dünya ölkələri ilə ikitərəfli sazişlər imzalaması zəruridir.

## ƏDƏBİYYAT

[1] Э.Н. Камышев, "Информационная безопасность и защита информации," Томск: ТПУ, 2009, 95 с.
[2] http://www.president.az
[3] А.А. Парошин, "Нормативно-правовые аспекты защиты информации," Владивосток, Изд-во Дальневост. федер. ун-та, 2010, 116 с.
[4] http://www.e-qanun.az
[5] R.M.Əliquliyev, R.Ş. Mahmudov, "İnternet mühitində intellektual mülkiyyət hüquqlarının qorunması məsələləri," Ekspress-informasiya. İnformasiya cəmiyyəti seriyası, Bakı, "İnformasiya Texnologiyaları", 2010, 60 s.